**AUDİT 2023, 2 (40), səh. 103-112.**
**AUDIT 2023, 2 (40), pp. 103-112.**
**АУДИТ 2023, 2 (40), стр. 103-112.**

**DOI: 10.59610/bbu2.2023.2.11**

*Əmirova Ülviyyə Nadir qızı,*
*doktorant,*
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),*
*E-mail: ulviyya.amirova2020@gmail.com*
*© Əmirova Ü.N., 2023*

**UOT: 332.13; 63**

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA AQRAR SAHƏNİN TƏNZİMLƏNMƏSİ İSTİQAMƏTLƏRİ

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi** – işğaldan azad edilmiş iqtisadi rayonlarda aqrar sahədə həyata keçirilən dövlət tənzimlənməsi metodlarını təhlil etmək, bu sahədə dövlətin tənzimləmə metodlarının xüsusiyyətlərini açıqlamaq, təkmilləşdirilməsi yollarını müəyyən etməkdir.

**Tədqiqatın metodologiyası** – tədqiqat zamanı müşahidə, təhlil, müqayisə, qruplaşdırma metodlarından istifadə edilmişdir.

**Tədqiqatın nəticələri** – tədqiqat nəticəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına vergi güzəştləri və digər dövlət dəstəyinin əhəmiyyəti tədqiq edilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti** – işğaldan azad edilmiş iqtisadi rayonlar üzrə inkişafın təmin edilməsinin artırılması üçün təklif edilən metod və vasitələr dövlət orqanları və sahibkarlar tərəfindən istifadə edilə bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – təhlil göstərir ki, işğaldan azad edilmiş regionlarda yeni institusional və inzibati metodlar tətbiq edilir və son 2 ildə dövlət tərəfindən xüsusi tənzimləmə metodları aktiv şəkildə həyata keçirilir. Lakin işğaldan azad edilmiş ərazilərdə inkişafı təmin etmək üçün yeni tənzimləmə üsul və mexanizmlərə ehtiyac artmışdır. İşğaldan azad edilmiş iqtisadi rayonlar üzrə inzibati, iqtisadi, institusional metodlar üzrə təklif edilən mexanizmlər yenidir.

**Açar sözlər:** iqtisadi rayon, region, metod, dövlət tənzimlənməsi, vasitə, mexanizm.

## G İ R İ Ş

İqtisadiyyatın davamlı inkişaf üçün vacib şərt milli strateji məqsədlərin və uzaqgörən idarəçiliyi müəyyən etməkdir. Regionların inkişafının dövlət tərəfindən tənzimlənməsinin bariz nümunəsi kimi son 15 ildə həyata keçirilən Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarını, Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsini qeyd etmək olar. Regionların inkişaf ilə bağlı qəbul edilmiş normativ-hüquqi sənədlərdə regional iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, inklüzivliyini və sosial rifahını daha da artıracaq, investisiyaların cəlbi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafına yardım edəcək dövlət tədbirləri öz əksini tapmışdır. Hal-hazırda Azərbaycan Respublikasının regionların inkişafı ilə bağlı həyata keçidiyi orta və uzunmüddətli dövlət tədbirlərinin əsas prioritetlərinə işğaldan azad edilmiş regionların yeni iqtisadi inkişaf modelinə keçidi təmin etməkdir. İşğaldan azad edilmiş ərazilərin nəinki əvvəlki iqtisadi vəziyyətinin bərpası, həmçinin yenidən qurulması və inkişaf etdirilməsi dövlətin prioritet məqsədidir.

**AUDİT 2023, 2 (40), səh. 103-112.**
**AUDIT 2023, 2 (40), pp. 103-112.**
**АУДИТ 2023, 2 (40), стр. 103-112.**

İlkin təhlil göstərir ki, işğaldan azad edilmiş regionlarda həyata keçirilən bütün tədbirlər dövlət tərəfindən birbaşa tənzimlənməklə təşkil edilir. Bu çərçivədə regionda iqtisadi inkişafın formalaşması, innovativ idarəetmə və tənzimləmə mexanizmlərinin optimal seçimi üzərində hələ işlər davam etdirilir. Qeyd edək ki, regionların inkişafına və sosial-iqtisadi vəziyyətinə görə müxtəlif ədəbiyyatlarda [3;5;6;7;9;12;13] fərqli yanaşmaların olmasına baxmayaraq, onların inkişaf etmiş, zəif inkişaf etmiş və "problemli" regionlara bölünməsi [4] və bu bölgünün kifayət qədər nəzəri əsaslarının verilməsi müşahidə edilir. Lakin həyata keçirilən regional siyasətdə regionların bu bölgü baxımından vəziyyətinin müəyyənləşdirilməməsi praktiki baxımdan tədbirlərin təyini və reallaşmasında müəyyən çətiniliklərə səbəb olur.

Hazırda işğaldan azad edilmiş regionların nəinki Azərbaycan daxilində, hətta Avropa və Asiyada nümunəvi sosial-iqtisadi mərkəz olaraq formalaşması və inkişafı üçün dövlət idarəetmə və tənzimlənməsinin yeni mexanizmləri araşdırılır. Daha mükəmməl quruluşun təmini üçün dövlət tərəfindən yaradılmış xüsusi Komissiyalarda müzakirələr aparılaraq bərpa və yenidənqurmada hansı tənzimləmə metodlarına üstünlüyün verilməsi müəyyənləşdirilir. Düşünürük ki, bu sahədə elmi-nəzəri araşdırmaların aparılması, müasir beynəlxalq təcrübənin öyrənilməsi və onun işğaldan azad edilmiş regionlarda tətbiqi imkanlarının təhlili aktuallığı ilə seçilir.

Tədqiqatın nəzəri əhəmiyyəti ölkədaxili regionların inkişafına dair indiyə qədər mövcud olmuş bütün iqtisadi yanaşmaları ümumiləşdirərək dövlət idarəetmə və tənzimlənməsinin mexanizmlərinin optimal tətbiqi imkanlarının və prioritetlərinin nəzəri cəhətdən müəyyənləşdirilməsindən ibarətdir. Bu təhlil münaqişə nəticəsində regiona dəyən ziyanın aradan qaldırılması və post-münaqişə dövründə innovasiya yönümlü inkişafı üçün nəzəri baxışların formalaşdırlması və irəli sürülməsi ilə şərtlənir. Tədqiqat zamanı əldə edilən nəticələr dövlətin ərazi baxımdan əsas elementi olan regionların fərqli vəziyyətlərdə iqtisadiyyatlarının tənzimlənməsi və idarə edilməsi modellərinin sistemli təhlilini və dəyərləndirilməsini əhatə etməklə, post-münaqişə dövrü üçün zəruri hesab edilən tənzimləmə mexanizmlərinin metodoloji əsaslarını, innovasiya əsaslı yenidən qurulma və inkişaf üçün tənzimləmə problemlərinin praktiki əsaslarını açıqlanmadır və bu məqsəd kimi qarşıya qoyulmuşdur.

Nəzərə alaq ki, tənzimləmə hər hansı problem yarandıqda onu aradan qaldırmaq və ya yaranacaq problemi öncədən görərək qarşısının alınması üçün həyata keçirilən tədbirdir. Müasir institusional nəzəriyyə iqtisadiyyatın problemlərini institusional dəyişikliklərlə qarşılıqlı asılılıqda, yəni. insanlar arasında münasibətlərin təşkili, "oyun qaydaları"nın dəyişdirilməsini araşdırır. Təəssüf ki, bazar iqtisadiyyatının qurulmuş institutları əsasən formal xarakter daşıyır və bəzən bir sıra böhran vəziyyətlərinin yaranmasına səbəb olur: onların fəaliyyəti və qarşılıqlı əlaqəsi iqtisadiyyatda baş verən mühüm proseslərə təsir göstərmir, nəzərə almır və əks təsir göstərmir. Buna səbəb təsərrüfat subyektlərinin real maraqları da ola bilir. Bu hadisə geniş şəkildə onunla izah olunur ki, transformasiya, iqtisadiyyatın yeni bazar şərtlərinə uyğunlaşma prosesi zamanı regional iqtisadiyyata digər formalaşmış və inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin bir çox institusional formaları mexaniki şəkildə milli iqtisadiyyata, o cümlədən regional iqtisadiyyata sadəcə olaraq ötürülüb [14]. Nəticədə problemlərin həll edilməsi əvəzinə yenilərinin yaranması baş verir.

AUDİT 2023, 2 (40), səh. 103-112.
AUDIT 2023, 2 (40), pp. 103-112.
АУДИТ 2023, 2 (40), стр. 103-112.

Xüsusi ilə aqrar sahədə bəzi iqlim, hərbi və digər fors-major hallar səbəbindən tənzimlənməsi mümkün olmayan risklərin çoxsaylı mövcudluğu tənzimləmə vasitə və üsullarının daim təkmilləşdirilməsini tələb edir. İqtisadi regionların fəaliyyətinin institusional tənzimlənməsinin formaları müxtəlif əsaslarla formalaşa bilər [11]. İşğaldan azad edilmiş iqtisadi regionların fəaliyyətinin tənzimlənməsi üçün əsas, bərpa və yenidənqurma, həmin regionlara əhalinin qayıtması və digər bu kimi postmünaqişə dövrünə xas olan məqamlardır. İnstitusional tənzimləmədə formal qurumlarla yanaşı, qeyri-formal institutlar da fərqləndirildiyi və onların təsir dərəcəsi üçün əhəmiyyətli olan əsas metodlarla yanaşı, sosial-siyasi və əxlaqi-etik metodlar da bir-birini tamamlayan amillər kimi qeyd edilməlidir. Bunlar arasında hazırda işğaldan azad edilmiş regionların tənzimlənməsi üçün inzibati - hüquqi üsullar daha effektivdir. Bu, siyasi-iqtisadi və sosial, ekoloji və digər münasibətlərin birbaşa, imperativ, böyük ölçüdə məcburi nizamlanmasıdır. Təcrübədə bu tənzimləmə qanunvericilik aktları, göstərişlər, sərəncamlar, qaydalar, nəzarət tədbirləri və s. formalarında özünü göstərir [15]. Postmüharibə dövründə Azərbaycan Respubikasının ərazi vahidlərinin yenidən bölgüsü nəticəsində 13 iqtisadi rayon formalaşdırılmışdır. Qarabağ iqtisadi rayonu 1 şəhər və 8 rayondan təşkil olunmuşdur ki, onlar da əsasən işğal altında olan şəhər və rayonlardır. İşğal altında olan digər iqtisadi rayon Şərqi Zəngəzurdu ki, onun tərkibində də 6 rayon var. İşğaldan azad edilmiş regionların fəaliyyətinin tənzimlənməsi və təşkilinə dair son 2 ildə xeyli sayda qanunlar, fərman və sərəncamlar qəbul edilmişdir [1,2]. Lakin işğaldan azad edilmiş rayonlarda aqrar sahənin inkişafının davamlı və dayanıqlı olması üçün araşdırmaların daha geniş şəkildə aparılmasına ehtiyac var.

**Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarının aqrar sahəsinin vəziyyətinin təhlili**

Milli iqtisadiyyatımızda kənd təsərrüfatı sahəsində xüsusi mülkiyyət üstünlük təşkil etdiyindən bu sahədə birbaşa dövlət müdaxiləsinin məhdud səviyyəli olmasına gətirir. Bu inzibati tənzimləmə əsasən normativ-hüquqi əsaslı olmaqla yalnız resursların müdafiəsi və istifadəsi ilə bağlıdır. Digər istiqamət təşkilati-idarəetmə qayda və normalarını, standartları əhatə edən institusional mexanizmlərin dəstini özündə ehtiva edir. Yalnız son illər aqrar sahənin inkişafı dolayı tənzimləmə mexanizmlərinin üstünlüyü ilə əlaqələndirilir ki, bunlar da vergi güzəştləri, dövlət tərəfindən verilən güzəştli kredit, subsidiya, subvensiya və dotasiyalardır.

2014-cü ildən başlayaraq dövlət dəstəyinin həcminin artırılması istiqamətində atılan addımlar genişləndirildi. Belə ki, "yanacaq-motor yağlarına görə ayrılan subsidiyanın həcmi 2017-ci ildən 25%, gübrənin güzəştli satışına görə, güzəştin həcmi isə 50%-dən 70%-ə qədər artırıldı. Kənd təsərrüfatı texnikasının satışına 40% güzəşt tətbiq olundu. İlk dəfə olaraq təkrar əkinlərə görə, subsidiyalaşma siyasəti müəyyən olundu. Qeyd edilməlidir ki daha əvvəlki dövrlərdə subsidyalar əkin sahəsinin həcminə görə verilirdi. 2015-ci ildən isə subsidiyaların artıq əldə edilən məhsula görə verilməsi qərara alınmışdır" [10]. Heyvandarlıq sahəsində subsidiyaların artırılması da müşahidə edilir. "Hər baş buzova görə heyvan sahiblərinə 100 manat həcmində subsidiya müəyyən edildi. Eyni zamanda ölkəyə iribuynuzlu damazlıq heyvanların idxalının və heyvandarlıqla məşğul olan kənd təsərrüfatı məhsulları istehsalçılarına 50% güzəştlə lizinq yolu ilə satışının həyata keçirilməsi üçün 10 milyon manat vəsait ayrılmışdır. Hesablamalara görə, vergi güzəştləri nəticəsində kənd təsərrüfatında xərclərin 10%-dək azalmasına imkan yaranmışdır" [10].

**AUDİT 2023, 2 (40), səh. 103-112.**
**AUDIT 2023, 2 (40), pp. 103-112.**
**АУДИТ 2023, 2 (40), стр. 103-112.**

Vergi Məcəlləsinə görə, kənd təsərrüfatına tətbiq edilən azadolma və güzəştləri aşağıdakı cədvəldən görmək mümkündür.

***Cədvəl 1.***

**Azərbayanda kənd təsərrüfatına tətbiq edilən vergi azadolma və güzəştləri**

| Azad edilmələr | Müddət (başlama və bitmə) | Davamlılıq müddəti |
|---|---|---|
| **Mənfəət və gəlir vergisindən** | | |
| K/t-ı məhsullarının istehsalçılarının (hüquqi şəxslə-rin) gəlirləri (maddə 106.1.14) | 01.01.2014-01.01.2024 | 10 il |
| K/t-ı məhsullarının istehsalçılarının (hüquqi şəxslə-rin) bu sahədəki satışdankənar gəlirləri (maddə 106.1.14-1) | 01.01.2023-01.01.2024 | 1 il |
| K/t-ı məhsullarının istehsalçılarına (hüquqi şəxslərə) dövlət büdcəsi vəsaitindən verilən subsidiyalar (maddə 106.1.14-1) | 01.01.2023-01.01.2024 | 1 il |
| K/t-ı məhsullarının istehsalçıların (rezident hüquqi şəxslərin) dividend gəlirləri (maddə 106.1.14-1) | 01.01.2023-01.01.2024 | 1 il |
| İnvestisiya təşviqi sənədini almış hüquqi şəxsin mənffətinin 50% (maddə 106.1.17) | sənədi aldığı tarixdən | 7 il |
| Siyahısı təsdiq edilən idxal mallarının yerli istehsa-lını həyata keçirən hüquqi şəxslərin mənfəətinin 50% (maddə 106.1.31 ) | siyahı təsdiq edildiyi ildən | 7 il |
| K/t-ı məhsullarının istehsalçılarının (fiziki şəxslərin) gəlirləri, bu sahədəki satışdankənar gəlirləri, dövlət büdcəsi vəsaitindən verilən subsidiyalar (maddə 102.1.11 ) | müddətsiz | müddətsiz |
| K/t-ı məhsullarının istehsalçıları olan rezident hüqu-qi şəxslərin iştirakçısı olan fiziki şəxslərin dividend gəlirləri | 01.01.2023-01.01.2024 | 1 il |
| **ƏDV-dən** | | |
| Buğdanın idxalı və satışı, unun və çörəyin istehsal və satışı (maddə 164.1.27) | 01.01.2017-01.01.2024 | 7 il |
| Damazlıq heyvanların, toxum və linglərin, mineral gübrələrin, pestisidlərin idxalı və satışı, baytarlıq preparatlarının idxalı (maddə 164.1.29-31) | müddətsiz | müddətsiz |
| Heyvan və quş ətinin satışı (maddə 164.1.37) | 01.01.2020-01.01.2024 | 4 il |
| Kəpəyin istehsalı və satışı (maddə 164.1.43) | 01.03.2019-01.03.2024 | 5 il |
| Siyahısı təsdiq edilərək heyvandarlıq və quşçuluqda istifadə edilən yem və yem əlavələrinin dövriyyələri (maddə 164.1.46) | 01.01.2020-01.01.2024 | 4 il |
| Toxumçuluq, quşçuluq, arıçılıq üçün avadanlıqların idxalı və satışı (maddə 164.1.32) | müddətsiz | müddətsiz |
| Baytarlıq preparatlarının idxalı (maddə 164.1.33) | müddətsiz | müddətsiz |
| K/t-ı suvarma və digər qurğu, maşın, avadanlıq, tex-nika, onların ehtiyat hissələrinin istehsalı, idxalı və satışı (maddə 164.1.34) | müddətsiz | müddətsiz |
| Mülkiyyət hüququ dəyişmədən texnikanın k/t-ı is-tehsalçısına lizinqə verilməsi (maddə 164.1.34-1) | müddətsiz | müddətsiz |
| Aqrotexniki xidmətlər (maddə 164.1.34-2) | müddətsiz | müddətsiz |
| Özəl baytarlıq xidmətləri (maddə 164.1.58) | müddətsiz | müddətsiz |
| **Əmlak vergisindən** | | |
| K/t-ı məhsullarının istehsalçıları (fiziki və hüquqi şəxslər) bu prosesdə istifadə edilən əmlaka görə (maddə 199.9) | 01.01.2014-01.01.2024 | 10 il |
| **Sadələşdirilmiş vergidən** | | |
| K/t-ı məhsullarının istehsalçıları öz istehsalı olan k/t-ı məhsullarının satışından əldə etdikləri hasilatın həcmi (maddə 218.1.1.1) | 01.01.2014-01.01.2024 | 10 il |

***Mənbə: AR Vergi Məcəlləsi əsasında müəllif tərəfindən tərtib edilmişdir***

AUDİT 2023, 2 (40), səh. 103-112.
AUDIT 2023, 2 (40), pp. 103-112.
АУДИТ 2023, 2 (40), стр. 103-112.

Hesablamalara əsasən, 2003-2018-cü illərdə kənd təsərrüfatı istehsalçılarına edilən vergi güzəştlərinin məbləği 3 milyard manatı ötüb. Kənd təsərrüfatı müəyyən bir inkişaf səviyyəsinə çatanadək bu güzəştlərin tətbiqi məqbul sayılır [8]. Lakin bu istiqamətdə maraqlı faktlardan biri də odur ki, milli aqrar sektor torpaq vergisindən azad edilməsə də, qonşu dövlət olan Gürcüstan bu vergidən də yerli kənd təsərrüfatı istehsalçılarını azad etmişdir. Aqrar sahədə yerli kənd təsərrüfatı məhsullarının istehsalçılarının mənfəət, ƏDV və sadələşdirilmiş vergidən azad edilməsi və ya onlara güzəştlərin tətbiqi bu sahəyə investisiya qoyuluşlarının artılıması imkan yaradır.

Qeyd edək ki, son illər kənd təsərrüfatını inkişafı təmin etmək üçün investisiya qoyuluşlarının artırılması baş verir. Əsasən də bərpa quraşdırma və yeni tikililərin həyata keçirilməsi üçün dövlət bu istiqamətdə küllü miqdarda vəsait xərcləyir. Aşağıdakı cədvəldə verilən məlumatlar II Qarabağ müharibəsinə qədərki, yəni torpaqların işğal altında olduğu dövrü əhatə etsə də, mümkün olduğu qədər bu iki iqtisadi rayonlara dövlət dəstəyinin edildiyini görmək olur.

*Cədvəl 2.*

**Qarabağ və Şərqi Zəngəzur İR-da əsas kapitala investisiya qoyuluşları**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2021 ildə əvvəlki ilə nisbətən |
|---|---|---|---|---|---|---|---|---|
| Respublika üzrə əsas kapitala investisiyalar, mln manat | 15957,0 | 15772,8 | 17430,3 | 17244,9 | 18539,5 | 17226,1 | 16815,4 | -2,4% |
| o cümlədən tikinti - quraşdırma işlərinə | 11722,9 | 11532,0 | 12447,0 | 11737,6 | 11974,8 | 11022,0 | 11200,1 | +1,6% |
| Qarabaq İR üzrə əsas kapitala investisiyaların respublika üzrə göstəricidə çəkisi, %-lə | 0,77 | 1,46 | 2,68 | 2,19 | 1,50 | 1,51 | 7,89 | 5,2 dəfə |
| o cümlədən tikinti - quraşdırma işlərinə | 0,99 | 1,85 | 3,41 | 3,10 | 2,03 | 2,15 | 11,7 | 5,5 dəfə |
| Şərqi Zəngəzur İR üzrə əsas kapitala investisiyaların respublika üzrə göstəricidə çəkisi, %-lə | 0,001 | - | 0,11 | 0,01 | 0,01 | 0,12 | 5,12 | 40,2 dəfə |
| o cümlədən tikinti - quraşdırma işlərinə | 0,002 | - | 0,13 | 0,01 | 0,01 | 0,19 | 7,6 | 40 dəfə |

***Mənbə: Müəllif tərəfindən AR DSK məlumatlarına (31.07.2022 tarixinə) əsasən tərtib edilmişdir***

Hazırda post müharibə dövründə investisiya qoyuluşlarının artırıldığını qeyd edə bilərik. Böyük qayıdış və işğal altında olan rayonların yenidən bərpası və tikinti işləri ilə bağlı kifayət qədər dövlət tərəfindən investisiyaların qoyulduğu görülməkdədir. Həm investisya qoyuluşlarının, həm də dövlət dəstək tədbirlərinin təsirini təyin etmək üçün hər iki iqtisadi rayonun kənd təsərrüfatı sahəsinin müqayisəli təhlilini aparmaq və regionalrda vəziyyəti təhlil etmək, bəzi statistik məlumatlara diqqət yetirmək zəruridir.

AUDİT 2023, 2 (40), səh. 103-112.
AUDIT 2023, 2 (40), pp. 103-112.
АУДИТ 2023, 2 (40), стр. 103-112.

*Cədvəl 3.*

**Qarabağ və Şərqi Zəngəzur İR-da kənd təsərrüfatı üzrə göstəriciləri, %-lə**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2021-də əvvəlki ilə nisbətən artma (+), azalma (-) |
|---|---|---|---|---|---|---|---|---|
| Qarabağ İR üzrə dənlilər və dənli paxlalıların ölkə üzrə istehsalda çəkisi | 13,54 | 14,05 | 11,64 | 13,07 | 12,01 | 13,41 | 11,6 | - 10,7 |
| Şərqi Zəngəzur İR üzrə dənlilər və dənli paxlalıların ölkə üzrə istehsalda çəkisi | 0,46 | 0,45 | 0,46 | 0,40 | 0,38 | 0,31 | 0,7 | +18,6 |
| Qarabağ İR üzrə pambığın ölkə istehsalında çəkisi | 18,41 | 21,77 | 28,74 | 27,79 | 29,52 | 28,43 | 28,33 | - 15,9 |
| Şərqi Zəngəzur İR üzrə pambığın ölkə istehsalında çəkisi, % | | 0,06 | | | | | | |
| Qarabağ İR üzrə şəkər çuğundurunun ölkə üzrə istehsalda çəkisi, %-lə | 49,14 | 52,30 | 53,82 | 38,38 | 37,03 | 21,54 | 11,95 | - 57.9 |
| Şərqi Zəngəzur İR üzrə şəkər çuğundurunun ölkə üzrə istehsalda çəkisi, %-lə | 0,36 | 0,12 | 0,12 | 0,18 | 0,20 | 0,33 | 0,77 | +78,8 |
| Qarabağ İR üzrə kartofun ölkə istehsalında çəkisi, % | 2,66 | 2,34 | 2,04 | 2,25 | 1,88 | 1,65 | 1,46 | - 9,5 |
| Şərqi Zəngəzur İR üzrə kartofun ölkə üzrə istehsalda çəkisi, %-lə | 0,05 | 0,05 | 0,05 | 0,06 | 0,06 | 0,06 | 1,05 | +0,5 |
| Qarabağ İR üzrə tərəvəzin ölkə istehsalında çəkisi, % | 9,99 | 9,87 | 10,85 | 14,86 | 17,16 | 14,56 | 16,11 | +15,5 |
| Şərqi Zəngəzur İR üzrə tərəvəzin ölkə istehsalında çəkisi, %-lə | 0,06 | 0,07 | 0,07 | 0,07 | 0,07 | 0,07 | 0,06 | - 0,6 |
| Qarabağ İR üzrə bostan məhsullarının ölkə üzrə istehsalda çəkisi, %-lə | 10,84 | 10,68 | 11,19 | 12,08 | 10,65 | 11,27 | 10,92 | - 0,6 |
| Şərqi Zəngəzur İR üzrə bostan məhsullarının ölkə üzrə istehsalda çəkisi, %-lə | 0,05 | 0,28 | 0,09 | 0,11 | 0,09 | 0,06 | 0,06 | +12,1 |
| Qarabağ İR üzrə ətin (kəsilmiş çəkidə) ölkə üzrə istehsalda çəkisi, %-lə | 7,29 | 7,33 | 7,32 | 7,42 | 7,69 | 7,59 | 7,53 | +2,4 |

**AUDİT 2023, 2 (40), səh. 103-112.**
**AUDIT 2023, 2 (40), pp. 103-112.**
**АУДИТ 2023, 2 (40), стр. 103-112.**

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Şərqi Zəngəzur İR üzrə ətin (kəsilmiş çəkidə) ölkə üzrə istehsalda çəkisi, %-lə | 1,85 | 1,88 | 1,79 | 1,74 | 1,68 | 1,65 | 1,64 | +2,3 |
| Qarabağ İR üzrə südün ölkə üzrə istehsalda çəkisi, %lə | 12,40 | 13,34 | 13,42 | 13,32 | 13,99 | 14,22 | 13,99 | - 0,2 |
| Şərqi Zəngəzur İR üzrə südün ölkə üzrə istehsalda çəkisi, %-lə | 2,37 | 2,31 | 2,28 | 2,02 | 1,95 | 1,93 | 1,98 | +4,1 |
| Qarabağ İR üzrə yumurtanın ölkə istehsalında çəkisi,% | 4,34 | 4,25 | 4,11 | 5,37 | 5,28 | 5,21 | 5,50 | +1,8 |
| Şərqi Zəngəzur İR üzrə yumurtanın ölkə üzrə istehsalda çəkisi, %-lə | 0,65 | 0,66 | 0,67 | 0,88 | 0,78 | 0,77 | 0,83 | +3,8 |
| Qarabağ İR üzrə yunun (fiziki çəkidə) ölkə üzrə istehsalda çəkisi, %-lə | 11,73 | 12,17 | 10,92 | 11,49 | 11,39 | 10,77 | 10,83 | +0,8 |
| Şərqi Zəngəzur İR üzrə yunun (fiziki çəkidə) ölkə üzrə istehsalda çəkisi, %-lə | 5,21 | 5,56 | 4,98 | 4,27 | 4,44 | 4,18 | 4,22 | +1,1 |

***Mənbə: Müəllif tərəfindən AR DSK materiallarına əsasən tərtib edilmişdir.***

Təhlildən görünür ki, hər iki iqtisadi rayonun təbii potensialının olmasına baxmayaraq, uzun sürən hərbi münaqişə vəziyyətilə əlaqədar tam istifadə edilə bilinməmişdir. 2021-ci ildə faizin aşağı olması heç də bütün göstəricilər üzrə geriləməni ifadə etmir. Qeyd edilən siyahı üzrə əsasən 2021-ci ildə istehsalın həcmi əvvəlki ilə əsasən artımla müşahidə edilmişdir. Lakin bəzi sahələrdə (dənlilər, şəkər çuğunduru, pambıq, kartof üzrə) iqtisadi rayonlarda azalmanın olması fakt olaraq qalır. Bu geriləməni aradan qaldırmaq üçün dövlət güzəşt və digər dəstəkləyici tədbirləri davam etdirilməlidir. Hazırda 2023-cü ilə qədər regionların sosial-iqtisadi inkişafının təmin edilməsində mühüm rol oynayan proqram gündəmdədir. Bununla yanaşı, düşünürük ki, aqrar sahədə forsaytın tətbiq edilməsi daha təkmilləşdirmiş idarəetmənin təşkilinə imkan vermiş olar. Forsayt iqtisadi inkişafın nəinki proqnozlaşdırılmasını, həm də bu inkişafın planlaşdırılmasına imkan yaradır. Belə ki, bir sıra inkişaf variantlarını nəzərə almaqla regional forsaytlar optimal tədbirlərin seçilməsini, həm resurs qənaətinə, həm də istifadə səmərəliliyinə səbəb ola bilər.

## YEKUN

Tədqiqat nəticəsində aparılan təhlil aşağıdakı nəticəni əldə etməyə imkan vermişdir:

İşğaldan azad olunmuş regionlarda dövlət tənzimləmə tədbirlərinin vaxtında həyata keçirilməsi, xüsusilə sabitliyin pozulması ehtimalının mövcud olduğu böhrandan sonrakı şəraitdə daha çox aktualdır. Ona görə aqrar sahədə institusional tənzimləmə tədbirləri iqtisadi və inzibati tədbirlərdən daha tez tətbiq edilmə tələbini formalaşdırır və hazırki şəraitdə onların qarşılıqlı istifadəsi zəruridir.

İşğaldan azad edilən regionların sosial-iqtisadi inkişafının tənzimlənməsinin effektiv olması üçün mütəmadi korrektə edilən mexanizmlərə ehtiyac var. Bu baxımdan aqrar sahədə forsaytın tətbiq edilməsi proqnozlardan fərqli olaraq, sistematik düzəlişlər edilərək regionlarda vəziyyəti dəqiq görməyə imkan verir. Əsasən də regional inkişafla bağlı yol xəritəsinin

**AUDİT 2023, 2 (40), səh. 103-112.**
**AUDIT 2023, 2 (40), pp. 103-112.**
**АУДИТ 2023, 2 (40), стр. 103-112.**

reallaşdırılmasında dövlətin əlində olan ən mükəmməl vasitələrdən biri olan forsayt özündə ekspert rəyini, müxtəlif təhlil vasitələri və üsullarını, ssenari yazılışını, texnoloji yol xəritələrini, qarşılıqlı təsir analizini və s. birləşdirdiyindən hazırda onun Şərqi Zəngurunun idarəedilməsində tətbiqini zəruri hesab edirik. Forsaytın tətbiqi aşağıdakı üstünlüklərin əldə edilməsinə xidmət etmiş olar:

– forsayt regionun resurs və digər vəsaitlərin istifadə imkan və istiqamətlərini təhlil etməklə nəinki səmərəliliyin artırılmasına, həm də nəticəyönümlük baxımından rasionallığın təmin edilməsinə xidmət etmiş olar;

– iqtisadi-sosial və innovativ inkişafı bir araya gətirərək ümumi inkişaf perspektivlərini qiymətləndirməyə imkan verər;

– bir neçə təhlil metodunun bir araya gətirərək daha dəqiq proqnozların qoyulmasını təmin edər.

## İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı

2. “İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2021-ci il tarixli Sərəncamı

3. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M.(2004) Iqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı «Nasir» nəşriyyatı, 2002, 447 s.

4. Əhmədov M.A., Hüseyn A.C. (2011) İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları.Metodiki vəsait, Bakı, “İqtisad Universiteti”, 2011

5. Huseyn A., Hajiyeva N., Musayeva Y. The role of the state in creating a favorable business environment in the agricultural sector. Economic and Social Development 55th International Scientific Conference on Economic and Social Development,18-19 June, 2020 - UNEC hosts 55th International Scientific Conference on Economic and Social Development - "Socio Economic Problems of Sustainable Development", Baku 2020 https://www.esd-conference.com/past-conferences

6. Kuşlin V.I. (2008) Bazar iqtisadiyyatının dövlət tənzimlənməsi, Bakı, 2008.

7. Mahmudov M, Mahmudova İ. (2011) Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi, Bakı 2011.

8. Mustafayev S. Aqrar sahənin inkişafını sürətləndirən vergi güzəştləri. Mövqe 29.02.2020. S.10. http://anl.az/down/meqale/movqe/2020/fevral/705277.htm

9. Nuriyev Ə.X. (2007) «Regional idarəetmənin əsasları». Dərslik. – Bakı. «Elm», 2007.

10. Süleymanov E., Rəhmanov F., Əlirzayev E. Azərbaycanda qeyr-neft sektorunu inkişafı strategiyasında aqrar sektorun inkişafına yönəlik siyasətlərin təhlili. Conference: “The Sustainable Development of Economy and Administration: problems and perspectives”, Baku,2018

11. Артамонов А.Д. (2008) Институциональные формы государственного регулирования экономики // Российское предпринимательство. 2008. №5-2.

12. Котилко В.В. (2001) Региональная экономическая политика. Учеб. пособие. М., Изд-во РДЛ, 2001-272 стр.

13. Морозова Т.М. (2002) Государственное регулирование национальной экономики, М, 2002.

14. Усманов Д. И. (2014) Формы и методы институционального регулирования региональных рынков продовольствия. Вестник БГТУ им. В.Г. Шухова 2014, №1, с. 133

15. Шимко П.Д. (2004) Оптимальное управление экономическими системами. – СПб: БизнесПресс. – 2004. – С.178., s.178

**AUDİT 2023, 2 (40), səh. 103-112.**
**AUDIT 2023, 2 (40), pp. 103-112.**
**АУДИТ 2023, 2 (40), стр. 103-112.**

*Ulviyya Nadir Amirova,*
*Ph.D. Student,*
*Azerbaijan State University of Economics (UNEC),*
*E-mail: ulviyya.amirova2020@gmail.com*
*© U.N. Amirova, 2023*

# DIRECTIONS OF AGRICULTURAL FIELD REGULATION IN KARABAGH AND EASTERN ZANGAZUR ECONOMIC REGIONS

## A B S T R A C T

**The purpose of the research** - is to analyze the methods of state regulation implemented in the agricultural sphere in the economic districts liberated from occupation, to identify the peculiarities of the state regulation methods in this sphere and to determine the ways of their improvement.

**The methodology of the research -** during the study, the methods of observation, analysis, comparison and grouping were used.

**The results of the research -** in the article, the meaning of tax benefits and other state support of the Karabakh and East-Zangezur economic districts is considered.

**The practical importance of the research -** suggested methods and tools can be used by government agencies and entrepreneurs to promote development in liberated economic areas.

**The originality and scientific novelty of the research -** the analysis shows that in the liberated regions, new institutional and administrative methods are used, and special methods of regulation are actively introduced by the state in the last two years. It also increases the need for new methods and mechanisms of regulation to ensure the development of liberated territories. Proposed mechanisms of administrative-economic and institutional methods for the release of economic districts are new.

**Keywords**: economic region, region, method, state regulation, means, mechanism.

**AUDİT 2023, 2 (40), səh. 103-112.**
**AUDIT 2023, 2 (40), pp. 103-112.**
**АУДИТ 2023, 2 (40), стр. 103-112.**

*Амирова Ульвия Надир кызы,*
*докторант,*
*Азербайджанский Государственный*
*Экономический Университет (UNEC),*
*E-mail: ulviyya.amirova2020@gmail.com*
*© Амирова У.Н., 2023*

# НАПРАВЛЕНИЯ РЕГУЛИРОВАНИЯ СФЕРЫ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В КАРАБАХСКОМ И ВОСТОЧНО-ЗАНГЕЗУРСКОМ ЭКОНОМИЧЕСКИХ РАЙОНАХ

## Р Е З Ю М Е

**Цель исследования -** проанализировать методы государственного регулирования, реализуемые в аграрной сфере в освобожденных от оккупации экономических районах, выявить особенности методов государственного регулирования в этой сфере и определить пути их совершенствования.

**Методология исследования** – в ходе исследования использовались методы наблюдения, анализа, сравнения и группировки.

**Результаты исследования** – в статье рассматривается значение налоговых льгот и другой государственной поддержки Карабахского и Восточно-Зангезурского экономических районов.

Практическая значимость исследования - предложенные методы и инструменты могут быть использованы государственными органами и предпринимателями для повышения развития в освободившихся экономических районах.

**Оригинальность и научная новизна исследования** – анализ показывает, что в освобожденных регионах применяются новые институциональные и административные методы, а специальные методы регулирования активно внедряются государством в течение последних двух лет. Однако нарастает потребность в новых методах и механизмах регулирования для обеспечения развития на освобожденных территориях. **Оригинальность и научная новизна исследования** – предложенные механизмы административно-экономических и институциональных методов для освобожденных экономических районов являются новыми.

**Ключевые слова**: экономический район, регион, метод, государственное регулирование, средства, механизм

*Məqalə redaksiyaya daxil olmuşdur: 27.03.2023*
*Təkrar işləməyə göndərilmişdir: 04.04.2023*
*Çapa qəbul olunmuşdur: 11.04.2023*

*The date of the admission of the article to the editorial office: 27.03.2023*
*Send for reprocessing: 04.04.2023*
*Accepted for publication: 11.04.2023*

*Дата поступления статьи в редакцию: 27.03.2023*
*Отправлено на повторную обработку: 04.04.2023*
*Принято к печати: 11.04.2023*